Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

ARTİ — Azərbaycan Respublikasının Təhsil İnstitutu

MÜTDA — Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi

birbank

# RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

Ad ____________________ Soyad ____________________

# 8-9

# TARİX

## AŞAĞI YAŞ QRUPU

- İmtahan müddəti 180 dəqiqədir.
- Hər səhv cavab öz dəyərinin 1/4 - ni aparır.
- 1-10-cu suallar 3, 11-20-ci suallar 4, 21-30-cu suallar 5 balla qiymətləndirilir.
- Nəzarətçilərə cavab kağızları və buraxılış vərəqələri təqdim olunur.
- Sual kitabçasında hər hansı texniki qüsur aşkarlandığı və kitabçanın şagirdin məlumatlarına uyğun olmadığı halda (fənn, bölmə, sinif) imtahandan əvvəl mütləq otaq nəzarətçisinə bildirilməlidir.
- Yarımfinal turunun nəticələrini 04.03.2025-ci il tarixindən etibarən portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

Uğurlar!

**TARİX- aşağı yaş qrupu**

1-ci hissə

**1. Qot tayfaları ilə mübarizə aparmışdılar:**

A) xəzərlər və ərəblər
B) yunanlar və göytürklər
C) iskitlər və hunlar
D) franklar və avarlar
E) uyğurlar və qarluqlar

**2. Uyğunluğu müəyyən edin:**

1. 2009-cu il
2. 2001-ci il
3. 2004-cü il

a) Ali məktəb tələbələri üçün prezident təqaüdü təsis edildi
b) "Təhsil haqqında" yeni qanun qəbul edildi
c) Heydər Əliyev fondu yaradıldı

A) 1-a, 2-b, 3-c
B) 1-b, 2-a, 3-c
C) 1-c, 2-b, 3-a
D) 1-a, 2-c, 3-b
E) 1-c, 2-a, 3-b

**3. Cənubi Azərbaycanda 1941-1946-cı illərdə baş vermiş milli hərəkatdan *fərqli* olaraq, 1917-1920-ci illərdəki hərəkat zamanı:**

1. SSRİ-nin hərbi yardımından istifadə edilmədi
2. Muxtar dövlətin yaradılması uğrunda mübarizə aparılırdı
3. Azərbaycanın adı Azadıstan olaraq dəyişdirildi
4. İranda Pəhləvilər sülaləsi hakimiyyətdə idi

A) 1, 4
B) 2, 3
C) 3, 4
D) 1, 3
E) 2, 4

**4. Rüstəm padşah və Qara Yusifin fəaliyyəti üçün oxşar cəhətlər:**

1. Tərəfdarlarına soyurqal torpaqların paylanması
2. Şirvanşahlar dövlətinin asılı hala salınması
3. Keçmiş müttəfiqləri üzərində qələbə qazanmaları
4. Teymuri qoşunlarının məğlubiyyətə uğradılması

A) 1, 2
B) 2, 3
C) 3, 4
D) 1, 3
E) 2, 4

**5. Selevki hökmdarı III Antiox və Roma sərkərdəsi Antoni üçün oxşar cəhət:**

A) Atropatena dövləti üzərinə hücum edilməsi
B) Parfiya ilə müharibədə qələbə qazanılması
C) Albaniyanın asılı hala salınması
D) İberlərin tabe edilməsi
E) Alban və Parfiya qoşunları tərəfindən məğlub edilməsi

**6. Cavanbulaq döyüşünün nəticələrinə aid *deyil:***

1. Abbasabad qalası rus qoşunları tərəfindən işğal olundu
2. İkinci Rus-Qacar müharibəsinin taleyi həll edildi
3. Naxçıvan xanlığında Qacarların dayaq məntəqəsi itirildi
4. Təbrizin ələ keçirilməsi üçün əlverişli şərait yarandı

A) 1, 2
B) 2, 3
C) 3, 4
D) 1, 3
E) 2, 4

**7. Nadir şahın hakimiyyəti dövründə kəndlilərin vəziyyətinin daha da ağırlaşmasına səbəb oldu:**

A) İcma torpaqlarının müsadirə edilərək tiyul olaraq feodallara paylanması
B) Məhsulla yığılan verginin pulla əvəz edilməsi
C) Rus tacirlərinə gömrüksüz ticarət hüququnun verilməsi
D) Tamğa və bac vergisinin yenidən bərpa olunması
E) Ayrı-ayrı tayfa başçılarına geniş imtiyazların verilməsi

**8. Ərdəbil hakimliyinə aid xüsusiyyətləri müəyyən edin:**

1. XIII əsrin sonunda meydana gəlmişdi
2. Yarımköçmə türk tayfalarını öz tərəflərinə çəkmişdilər
3. Cəlairilərlə birlikdə Əlincə qalasının müdafiəsində iştirak etmişdilər
4. Ağqoyunlu Həsən padşah tərəfindən təqiblərə məruz qalmışdılar
5. XV əsrin ikinci yarısında Dağıstana yürüşlər etmişdilər

A) 1, 3, 4
B) 2, 4, 5
C) 1, 2, 3
D) 3, 4, 5
E) 1, 2, 5

**9. Asparux xanın hakimiyyəti dövründə baş vermişdir:**

1. Slavyan tayfalarının bulqarlara tabe edilməsi
2. Bizans imperatorunun xərac verməyə məcbur edilməsi
3. Konstantinopolun ikinci dəfə mühasirəyə alınması
4. Xristianlığın rəsmi dövlət dini elan edilməsi

A) 1, 2
B) 2, 3
C) 3, 4
D) 1, 3
E) 2, 4

**10. Xronoloji ardıcıllığı müəyyən edin:**

1. Çində antiyapon cəbhəsinin meydana gəlməsi
2. Hindistanda "Köləlik konstitusiyası"nın elan edilməsi
3. Pəhləvi sülaləsinin hakimiyyətə gəlməsi
4. Özbəkistan və Türkmənistan SSR-in təşkil edilməsi

A) 1, 2, 3, 4
B) 3, 2, 4, 1
C) 4, 3, 2, 1
D) 2, 4, 1, 3
E) 4, 1, 3, 2

2-ci hissə

**11. 1142-ci ildə Mərv və Nişapuru ələ keçirmişdi:**

A) Mahmud Qəznəvi
B) Cəlaləddin
C) Əlaəddin
D) Toğrul bəy
E) Atsız

**12. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin:**




a. Ağa Məhəmmməd xana qarşı Qarabağ xanlığı və gürcülərlə ittifaq qurulması
b. Gürcü çarı II İrakli ilə mübarizə aparılması
c. Urmiyalı Fətəli xandan asılılığın qəbul edilməsi
d. Qarabağ xanlığına yürüşün uğursuzluqla nəticələnməsi
e. Əsasının Əfşarlar sülaləsi tərəfindən qoyulması

A) 1-a; 2-b,c; 3-d,e
B) 1-b,c; 2-d,e; 3-a
C) 1-d; 2-a,e; 3-b,c
D) 1-a,e; 2-d; 3-b,c
E) 1-b,d; 2-c,e; 3-a

**13. Rusiya Federasiyasının XX əsrin 90-cı illər tarixi üçün səciyyəvidir:**

1. Gürcüstan ərazisinə hərbi müdaxilənin baş verməsi
2. Milli respublikalarla Federasiya prezidenti arasında müqavilə imzalanması
3. Krımın Rusiyaya ilhaq edilməsi
4. Ukrayna və Rusiya arasında müqavilə imzalanması
5. İkinci çeçen müharibəsinin başlanması

A) 1, 2, 5
B) 2, 4, 5
C) 1, 2, 3
D) 3, 4, 5
E) 1, 3, 4

**14. Versal müqaviləsinin davamlı sülhü təmin edə bilməməsinin səbəblərindəndir:**

A) Antantanın bəzi müttəfiq dövlətlərinin müqavilə şərtlərindən narazı qalması
B) Yaxın Şərqdə Ərəb-İsrail münaqişəsinin başlanması
C) ABŞ-ın zəifləmiş Avropa dövlətlərini öz nəzarəti altına almaq istəməsi
D) Dünya ölkələrində iqtisadi böhranın başlanması
E) Millətlər Cəmiyyətinin Versal müqaviləsini təsdiq etməməsi

**15. SSRİ-nin üçüncü konstitusiyasının qəbuluna hazırlıq işləri getdiyi dövrdə təklif olunurdu:**

A) ZSFSR-in ittifaq tərkibindən çıxarılması
B) DQMV-nin Ermənistanın tərkibinə verilməsi
C) Naxçıvan MSSR-in statusunun ləğv olunması

D) Planlı iqtisadi siyasətdən imtina edilməsi
E) SSRİ-nin tərkibində olan dövlətlərin konstitu-siyalarının ləğv olunması

**16. Antiterror əməliyyatlarının nəticələrinə aid *deyil:***
A) Azərbaycan Respublikası Qarabağ iqtisadi rayonu üzərində suveren hüquqlarını tamamilə bərpa etdi
B) Xankəndi və Xocalı terrorçulardan təmizləndi
C) Azərbaycan ərazisində yeni bir erməni dövlətinin qurulmasının qarşısı alındı
D) DQMV-nin statusu ləğv olundu
E) Qondarma “Qarabağ problemi” birdəfəlik həll olundu

**17. Məntiqi ardıcıllığı tamamlayın:**
1. Fransa kralının edam olunması və respublika yaradılması
2. Fransanın yenidən müstəmləkələr uğrunda müba-rizəyə başlaması
3. ....................................................................
A) Fransa inqilabının başa çatması
B) Avstriyanın Fransa ərazisinə müdaxilə etməsi
C) Fransa və Rusiyanın Osmanlıya qarşı birləşməsi
D) Direktoriyanın Yakobinçilər tərəfindən devrilməsi
E) Hollandiya və İspaniyanın Koalisiya müharibələrinə qoşulması

**18. XVIII əsrin ortalarında Rusiya-Osmanlı münasibətlərinin pozulmasına səbəb oldu:**
A) Rusiyanın Polşa torpaqlarının bir hissəsini ələ keçirməsi
B) Krımın Rusiya tərəfindən işğalı
C) Osmanlı dövlətinin Vyananı mühasirəyə alması
D) Ukrayna kazaklarının Osmanlının himayəsini qəbul etməsi
E) I Pyotrun Osmanlının qərb torpaqlarına yürüşü

**19. Hadisə-nəticə əlaqəsinin doğru göstərildiyi cavabı müəyyən edin:**

| | Hadisə | Nəticə |
|---|---|---|
| A) | Hərbi kommunizm siyasətinin tətbiq edilməsi | Azərbaycanda neft sənayesinin yenidən qurulması |
| B) | “Əhalinin Ümumittifaq siyahıya alınması”nın keçirilməsi | Qolçomaq və ortabab kəndli ailələrinin sürgünə göndərilməsi |
| C) | “Savadsızlıqla mübarizə komitəsi”nin yaradılması | Azərbaycan gənclərinin təhsil üçün xarici dövlətlərə göndərilməsi |
| D) | Sənayeləşdirmə tədbirlərinin həyata keçirilməsi | Kənd təsərrüfatından vəsaitlərin neft sənayesi və enerji sektoruna köçürülməsi |
| E) | Yeni İqtisadi Siyasətin tətbiq edilməsi | İri sənaye müəssisələrinə xarici kapitalın cəlb edilməsi |

**20. Azərbaycanda 1912-1913-cü illərdə keçirilmiş aqrar islahatlara aid *deyil*:**
A) Pay torpaqlarının kəndlilərə məcburi şəkildə satılması
B) Sahibkar kəndlilərinin mükəlləfiyyət daşımaqdan azad edilməsi
C) Əkinçilik üçün yararsız torpaqların kəndlilərə pulsuz verilməsi
D) Su arxları, çəmən, otlaq və meşələrin kəndlilər arasında bölünməsi
E) Zaqatala dairəsində kəndlilərin feodal asılılığından azad edilməsi

3-cü hissə

**21. XX əsrin əvvəllərində Fransa iqtisadiyyatına aid olan amilləri seçin:**
1. Kapital ixracına görə dünyada ikinci yerdə olması
2. Aviasiya və Avtomobil sənayesinin inkişaf etməsi
3. Almaniyaya qarşı “revanşizm” siyasətinin aparılması
4. Sənaye məhsullarının istehsalına görə yalnız ABŞ və Almaniyadan geri qalması
5. Dünyanın maliyyə mərkəzi olması
A) 1,2,3
B) 2,5
C) 1,3,4
D) 3,4,5
E) 1,2

**22. Muş döyüşündən fərqli olaraq Malatya döyüşü:**
A) Qaraqoyunlu və Ağqoyunlu dövlətləri arasında baş vermişdi
B) Ağqoyunlu dövlətinin qələbəsi ilə başa çatmışdı
C) Ağqoyunluların məğlubiyyəti ilə başa çatmışdı
D) Uzun Həsənin rəhbərlik etdiyi Ağqoyunlu ordusu qalib gəlmişdi
E) Teymuri ordusunun Azərbaycanı tərk etməsinə səbəb olmuşdu

**23. Lokal xarakterli antiterror əməliyyatı zamanı düşmən işğalından azad edilmiş rayon mərkəzini xəritə üzərində müəyyən edin.**




A) 1
B) 2
C) 3
D) 4
E) 5

**24. Xəritədə göstərilmiş dövlətlərə aid *olmayan* bəndi müəyyən edin:**




A) İkinci dünya müharibəsində bitərəf dövlətlərdən idi
B) XX əsrin 30-cu illərində Xalq Cəbhəsi hökuməti təşkil edildi
C) 1973-cü ildə AİB-yə daxil oldu
D) 1918-ci ildə inqilab nəticəsində monarxiya devrildi
E) 1946-cı ildə respublika elan edildi

**25.** “*Qədim fars mənbələrində bu xalqların üç böyük qrupa- xaoma varqalara, tiqraxaudlara və paradarayalara böləndüyü haqqında məlumatlar var*”.
**Qeyd olunan məlumatlar aiddir:**
A) Yunanlara
B) Hunlara
C) Saklara
D) Şumerlərə
E) Misirlilərə

**26.**
- *E.ə. II əsrdən- b.e. III əsrinədək mövcud olmuşdur*
- *Sırdəryanın orta hövzələri və Qərbi Yeddisu bölgəsini əhatə edirdi*
- *Çinin Xan sülaləsinə qarşı mübarizə aparmışdır*

**Qeyd olunanların aid olduğu dövlət:**

A) Kanquy
B) Yueci
C) Eftalit
D) Kuşan
E) Selevki

**27. İslam dinini qəbul edən ilk Cağatay xanı:**
A) Tuğluq Teymur
B) Mübarəkşah
C) Qazan xan
D) Özbək xan
E) Bərkə xan

**28. Bizans mənbələrində Tourkia adlanırdı:**
A) Kırım yarımadası
B) Şərqi Anadolu
C) Qafqazın cənub-şərqi
D) Macarıstan bölgəsi
E) Bolqarıstan ərazisi

**29. SSRİ hüquqi cəhətdən öz dövrünü başa vurdu:**

A) MDB-nin yaradılması ilə

B) Azərbaycan Respublikasında keçirilmiş müstəqillik haqqında referendumla

C) M. Qorbaçovun istefa verməsi ilə

D) Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı ilə

E) Müttəfiq respublikaların öz müstəqilliklərini elan etməsi ilə

30. **Qeyd olunanlardan neçəsi yanlışdır:**

- Qafur Məmmədov Sovet İttifaqı Qəhrəmanı adını almış ilk azərbaycanlıdır
- İsrafil Məmmədov Şimali Qafqaz uğrunda gedən döyüşlərdə göstərdiyi şücaətə görə Sovet İttifaqı Qəhrəmanı adını almışdır
- Ziba Qəniyeva ilk azərbaycanlı təyyarəçi qadınlardan olmuşdur
- Adil Quliyev düşmənin 18 təyyarəsini məhv etdiyinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür
- Polşa uğrunda döyüşlərdə göstərdiyi şücaətə görə Ziya Bünyadov Sovet İttifaqı Qəhrəmanı adını almışdır
- Əhmədiyyə Cəbrayılov Fransanın “Hərbi Xaç” medalına layiq görülmüşdür

A) 1

B) 2

C) 5

D) 4

E) 3